

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi Bakı Dövlət Universiteti

28 yanvar 2020-ci il

BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

Hardan başlanır Vətən? səh. 3

"20 Yanvar" "Mir Şahinin vaxtı"nda səh. 3

Ukraynalı alimlə görüş keçirilib səh. 3

Dilçilik elmimizin korifeyi: professor Əlövsət Abdullayev səh. 6

BDU alimi Beynəlxalq Atatürk Mükafatına layiq görüldü səh. 7

İlk rektorumuz səh. 7

"Equinor" şirkətinin Azərbaycan üzrə rəhbəri BDU-da səh. 7

Psixoloji yardım sektoru tələbələrə dəstək olacaq səh. 8

Bufetdəki son günlərim... səh. 8

Mənəvi dəyərlərimiz səh. 8

Tələbəmiz dünya çempionu oldu səh. 8



BDU-da 20 Yanvar şəhidlərinin xatirəsi anılıb

➔Səh.2



"Abay ili" tədbirləri Universitetdən başladı

➔Səh.4



"SABAH"ın dünəni, bu günü və sabahı

➔Səh.4



Himayəçilər Şurasının növbəti iclası keçirildi

➔Səh.5



İordaniyanın səfiri Universitetdə oldu

➔Səh.5



Qori Müəllimlər Seminariyasından BDU-ya

➔Səh.5



# BDU-da qış imtahan sessiyası ilə bağlı "Açıq qapı" günü keçirildi

> Görüşdə həmçinin Gənc Alimlər Şurası və Tələbə Elmi cəmiyyətinin fəaliyyətinin yenidən qurulması və tələbələrin bu işə cəlb olunması məsələlərindən danışılıb. Həmçinin bildirilib ki, istedadlı tələbələrin üzə çıxarılması, onların elmi fəaliyyətə, qrant layihələrinə cəlb olunması məsələləri gündəmdədir.

Bakı Dövlət Universitetində (BDU) 2019/2020-ci tədris ilinin qış imtahan sessiyası ilə bağlı "Açıq qapı" günü keçirilib.

Görüşdə rektor Elçin Babayev tələbələrin imtahanlarla bağlı yaranan istənilən müraciətlərinə İmtahan Qərargahı tərəfindən operativ qaydada baxıldığını bildirib. Tələbələrin imtahan prosesinə dəstək olmaq məqsədilə valideynlərə və dekan müavinlərinə müvafiq tapşırıqlarını verib.

"Açıq qapı"da rektora ünvanlanan müraciətlər, əsasən qaib limitinin ötməsi, bu səbəbdən imtahana buraxılmama və 1-2 balla imtahandan və yaxud əlaçı, zərbəçi təqaüdündən kəsilən tələbələrə güzəştlərin tətbiqi ilə bağlı olub.

Görüşdə həmçinin Gənc Alimlər Şurası və Tələbə Elmi cəmiyyətinin fəaliyyətinin yenidən qurulması və tələbələrin bu işə cəlb olunması məsələlərindən danışılıb. Həmçinin bildirilib ki, istedadlı tələbələrin üzə çıxarılması, onların elmi fəaliyyətə, qrant layihələrinə cəlb olunması məsələləri gündəmdədir.

Rektor valideynlərə tələbələrin sosial fəallığının artırılması məqsədilə universitetin nəzdində Mədəniyyət Yaradıcılıq Mərkəzi və İdman Sağlamlıq Kompleksinin yaradılacağı haqqında məlumat verib.

İmtahan nəticələrinin vaxtında açıqlanmasından danışan rektor qeyd edib ki, bütün müraciətlər ətraflı araşdırılır və qaydalar çərçivəsində köməklik göstərilir. Bunun üçün BDU-nun müvafiq struktur bölmələrinin rəhbərlərinə tapşırıq verilib.

*Rektor Elçin Babayev valideynlərin müraciətlərini dinləyib.*

Sonda proses iştirakçıları Keyfiyyətin təminatı, monitorinq və qiymətləndirmə şöbəsi, imtahan auditoriyaları və sessiyasının gedişinə nəzarət edən, tələbə və valideynlərin, həmçinin ictimaiyyətin müraciətlərinin qəbulu və araşdırılması işini həyata keçirən imtahan Qərargahının fəaliyyəti ilə də tanış olublar.



Ekvatordan qütblərə

➔Səh.7



Çində ali təhsil sistemi

➔Səh.6



Müasir dövrün ən böyük təsir vasitəsi - Media

➔Səh.5

# BDU-da 20 Yanvar şəhidlərinin xatirəsi anılıb








***Bakı Dövlət Universitetində (BDU) 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Universitetin 2 saylı tədris binasının qarşısında 20 Yanvar Şəhidlərinin xatirəsinə ucaldılmış abidənin ziyarətindən sonra tədbir böyük akt zalında davam etdirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Mərasim iştirakçıları şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Rektor Elçin Babayev Qanlı Yanvar faciəsinin XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü olduğunu qeyd edərək, ölkəmizin suverenliyi və azadlığı uğrunda şəhid olan qəhrəmanların əziz xatirəsinin əbədi yaşadığını bildirib. Faciə zamanı keçmiş Sovet ordusunun xalqımızın silahsız övladlarını, mülki əhalini vəhşicəsinə qətlə yetirdiyini bildirən rektor bu hərbi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu diqqətə çatdırdı.

E.Babayev Ümummilli Lider Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskva şəhərindəki nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə pislədiyini xatırladaraq faciəyə ilk dəfə siyasi-hüquqi qiymətin də məhz Ulu Öndər tərəfindən verildiyini vurğuladı. ***Prezident İlham Əliyevin 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində verdiyi sərəncam və fərmanlara diqqət çəkərək əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzlərinin inşa olunduğunu bildirib.***

Tarix fakültəsinin dosenti Səidə Quliyeva bildirib ki, 20 Yanvar qəhrəmanlıq və milli mübarizə tariximizin növbəti səhifəsidir. Xalq milli birliyini qoruyaraq müstəqil dövlət qurmaq mübarizəsini davam etdirdi. Şəhidlərimizin ruhu, milli şüurumuz, genetikamız bizdən - hər bir azərbaycanlıdan müstəqil dövlətimizi qorumağı və inkişaf etdirməyi tələb edir.

Sonra qanlı hadisədə şəhid olmuş Yanvar Nəsirovun həyat yoldaşı, 20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının təmin olunması İctimai Birliyinin sədr müavini, Filologiya fakültəsinin əməkdaşı Almara Nəbiyeva çıxış edib. O, 20 Yanvar faciəsinin xalqımızın azadlıq mübarizəsi tarixində şərəf və qəhrəmanlıq səhifələrindən biri olduğunu qeyd edib.

***Tədbirin sonunda tələbələr Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər poeması"ndan hissələr səsləndirib, universitetin "Gənc istedadlar" liseyinin şagirdlərinin təqdimatında səhnəciklər göstərilib və "Ümid sənədir ancaq, Azərbaycan əsgəri" şeiri təqdim edilib.***

## Elmi Kitabxanada...



***Elmi Kitabxanada Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar tədbir keçirilib.***

Universitetin Elm və innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü, professor Aydın Kazımzadə tədbiri giriş sözü ilə açaraq bildirib ki, 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli, lakin xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizəsinin rəmzinə çevrilib. Qanlı hadisədən 30 il keçməsinə baxmayaraq, xalqımızın o dəhşətli günlərin ağrı-acısını unutmadığını bildirən A.Kazımzadə həmin vaxt Moskvada yaşayan Ümummilli Lider Heydər Əliyevin faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdiyini, Ulu Öndərin təşəbbüsü ilə 1994-cü ildə faciəyə siyasi-hüquqi qiymət verildiyini xatırladıb.

Elmi Kitabxananın direktoru Nigar İsmayılova isə bildirib ki, keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirmədi, əksinə, haqq səsini daha ucadan bəyan etdi.

Kitabxananın əməkdaşları Ramiyə İsgəndərzadə, Səlihət Xəlilova, Jalə Mustafazadə və Şükufə Əliyevanın çıxışlarından sonra kitabxananın daimi oxucuları, Tarix fakültəsinin tələbələri "Vətən sağ olsun" və "Şəhidlər" şeirlərini səsləndiriblər. Xüsusi guşədə hadisə ilə bağlı kitab sərgisi və "Gənc istedadlar" liseyinin şagirdlərinin rəsm əsərləri nümayiş etdirilib.

## Tarix fakültəsində...



***Tarix fakültəsində "20 Yanvar - Xalqımızın hüzn, həm də şərəf günüdür" mövzusunda dəyirmi masa keçirilib.*** Tarix fakültəsinin dekan əvəzi, professor İbrahim Zeynalov tədbiri giriş sözü ilə açaraq bildirib ki, vətən və torpaq öz şəhidləri ilə ucalır. 20 Yanvar faciəsinin xalqımızın hüzn, həm də şərəf günü olduğunu qeyd edən İ.Zeynalov müstəqillik uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsinin daim əziz tutulduğunu vurğulayıb.

Dəyirmi masa iştirakçıları Rövşən Hətəmov, Boran Əziz, Azad Rzayev, İsmayıl Məmmədov, Sevda Hüseynova, Mehman Abdullayev faciənin Azərbaycanın müstəqillik tarixindəki əhəmiyyətindən bəhs ediblər. Qanlı hadisələrin törədilməsində əsas məqsəd, nəticələri və ibrət dərsləri haqqında müzakirələr aparılıb. Tarixçi-alimlər Ümummilli Lider Heydər Əliyevin faciənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək qanlı hadisəni törədənləri pisləyən kəskin bəyanatla çıxış etməsi və onun təşəbbüsü ilə faciəyə siyasi-hüquqi qiymət verilməsi barədə də danışıblar.

*Tədbirdə Universitetin Elm və innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü, profesor Aydın Kazımzadə, fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.*

## Jurnalistika fakültəsində...



***Jurnalistika fakültəsində 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar "20 Yanvar: həqiqətin özü" adlı elmi seminar keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Zifəroğlu qeyd edib ki, 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub.*** Öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladlarımız həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucalıblar. 1990-cı ilin qanlı-qadalı günlərində Azərbaycan xalqı istiqlal əzmini ortaya qoyaraq bu dəyər uğrunda canından keçməyə hazır yüzlərlə övladının olduğunu bütün dünyaya nümayiş etdirib.

Daha sonra Sosial Tədqiqatlar Mərkəzinin idarə heyətinin sədr müavini, politoloq, siyasət üzrə elmlər doktoru Elşad Mirbəşiroğlu "20 Yanvar faciəsi: səbəbləri, nəticələr" adlı məruzə ilə çıxış edib: "1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşunları qəfildən Bakı və Sumqayıt şəhərlərinə, habelə ölkəmizin digər şəhər və rayonlarına yeridilmiş, hərbi gəmilərlə gətirilmiş desant qrupları, tanklar və digər ağır hərbi texnikadan istifadə etməklə, dinc əhalini atəşə məruz qoymuş, silahsız mülki şəxsləri, o cümlədən uşaqları, qadınları və yaşlıları amansızcasına öldürmüş, bununla da beynəlxalq hüquq normaları kobudcasına pozulmuşdur. Doğma yurdunun azadlığının və öz hüquqlarının müdafiəsinə qalxmış çoxmillətli xalqımıza qarşı insanlıq əleyhinə qatı cinayət törədilmişdir. Bu faciənin unudulmaması və tarixi həqiqətlərin gənc nəsillərə çatdırılması hər kəsin, o cümlədən gənc jurnalistlərin vətəndaşlıq borcudur və hər birimiz üzərimizə düşən bu missiyanı layiqincə yerinə yetirməliyik".

Tədbirdə iştirak edən professorlar Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli 20 Yanvar faciəsinin başvermə səbəbləri barədə məlumat verib, yaddaşlara Qara Yanvar gecəsi kimi həkk olunan bu tarixin həm şəhidlərin anım günü, həm də Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparan xalqımızın birlik, fəxr və şərəf günü sayıldığı, bu qanlı hadisələrin xalqımızın müstəqilliyinin bərpası naminə mübarizə aparmaq əzmində olmasını bir daha nümayiş etdirdiyini vurğulayıblar.

Mərasimdə çıxış edən fakültənin üçüncü kurs, ingilis bölməsinin tələbəsi Hacıbaba Mustafayev qeyd edib ki, bütün faciəsi ilə yanaşı, 20 Yanvar günü xalqımızın milli suverenlik, azadlıq uğrunda yenilməz iradəsinin rəmzidir. Faciə xalqımızın milli azadlıq uğrunda mübarizəsinin şanlı səhifəsidir. Təpədən dırnağa qədər silahlanmış imperiya ordusunun cəza tədbirləri millətimizin haqq səsini boğa bilməyib əksinə, yumruq kimi birləşən xalqımız öz etirazını, nifrətini daha ucadan bəyan edib.

*Tədbirin sonunda tələbələrin çoxsaylı sualları cavablandırılıb.*

**BDU Mətbuat xidməti**

# HARDAN BAŞLANIR VƏTƏN?

## 90-cı illərin gəncinin bu düşüncələri müasir gəncliyin də əsas amalıdır, desək yanılmarıq

**"525-ci qəzet"in 20 Yanvar şəhidi, şair Ülvi Bünyadzadənin xatirəsinə həsr olunan esse və şeir müsabiqəsində BDU tələbələri ilk yerləri qazanıb**



***Vətən hardan başlayır??? Hər kəsin cavabı fərqlidi - kimi üçün doğulub boya-başa çatdığı ata yurdundan, kimi üçün yaşadığı şəhərdən, kimi üçünsə..... Nöqtələrin yerinə çox sözlər yazmaq olar. Məsələn, mənim üçün VƏTƏN Topxana meşəsindən başlanır.*** *1988-ci ildə qırılan o iki ağacdan. O zamana qədər yalnız coğrafiya dərsində xəritədən eşitmişdim bu adı. 1988-ci il noyabrın 17-də isə Şuşa yaxınlığındakı Topxana meşəsinin yerində Ermənistanın Kanaker alüminium zavodunun işçiləri üçün pansionatın tikilməsi xəbəri yüzminlərlə insanı, eləcə də 13 yaşlı məktəblini Azadlıq meydanına topladı. Əslində biz Topxana ilə başlayan Dağlıq Qarabağ ətrafındakı oyunlara etiraz edirdik. Azadlıq meydanı ilk dəfə idi ki, bu qədər insanı bir araya yığırdı. 1 və 9 may nümayişlərindən fərqli idi meydanın halı. Adı da fərqli idi artıq. Daha məsuliyyətli, daha inamlı....*

Sonra 1990-cı ilin 20 yanvarı... O zamana qədər paytaxt çox etirazlara şahid olmuşdu. Yanvarın 19-dan 20-sinə keçən gecənin də bu etirazlardan biri olacağını zənn etmişdik. Hətta televiziya ekranının qara rəngə boyanması, ayaqlarımızın altından uçuşan rəngli güllələr belə bu gecənin qaranlığının qanla aydınlanacağını təsəvvür etmirdik. Çünki hələ də şeirlərdə əzbərlədiyimiz şanlı sovet ordusuna inanırdıq. Ayaqlarımızın altından uçuşan rəngli güllələrlə isə oyun oynayırdıq... Məhlə aşağı oğulların adını qışqırıb qaçan anaların həyəcanlı səsi belə ayıltmırdı bizi. Ta o vaxta qədər ki, kiminsə "güllə evinin qapısındaca Fəridənin canını aldı" xəbərini eşidincəyə qədər... O zamandan başlayaraq hamımız böyüdük, o qədər böyüdük ki, əlimizdə bel Dağüstü parkı yenidən qəbiristanlığa çevirmək üçün tələsdik. O zaman anladım ki, Vətən mənim üçün həm də Şəhidlər Xiyabanından başlayır.

90-cı illərin gəncinin bu düşüncələri müasir gəncliyin də əsas amalıdır, desək yanılmarıq. "525-ci qəzet"in 20 Yanvar şəhidi, şair Ülvi Bünyadzadənin xatirəsinə həsr olunan esse və şeir müsabiqəsində ilk yerlərə çıxan yazılara nəzər salanda bu, daha çox aydın olur. İllər keçsə də... yaşayacaq... sərlövhəli yazıda BDU Jurnalistika fakültəsinin IV kurs tələbəsi Kənan Novruzovun təbirincə desək, "Həyat üçün doğulmuşuq, vətən üçün ölməliyik" misrası ilə, elə bil, hər kəsə bəyan edirdi ki, millətin, torpağın taleyi onun öz taleyidir. Düzdür, Azərbaycan yaşadı, inkişaf etdi. Ölkəmiz bu gün dünyaya, Avropaya sürətlə inteqrasiya edir. Lakin məhz Ülvi Bünyadzadə və onun kimilərin yüksək vətəndaşlıq mövqeləri nəticəsində. Keçmişlər yavaş-yavaş silinəcək. Bircə tarix yazanlar, adını tarixə yazdıranlar unudulmayacaq, həmişə yaddaşlarda qalacaqlar"....

Fakültənin magistrları Günel Mehdizadənin "Qəbirdə də Qarabağın özüyəm" sərlövhəsi, Ulucay Akifin "Vətən" şeiri, üçüncü kurs tələbəsi Günel Abbasovanın "Vətənə getməyim gəlir" essesi gənclər üçün VƏTƏNin hardan başladığını daha tutarlı xarakterizə edir.

***Aynur Nəsirova,***
*Multimedia və elektron kommunikasiya kafedrasının dosenti*



# UNİVERSİTET XƏBƏRLƏRİ

## Ukraynalı alimlə görüş keçirilib

***Nanoaraşdırmalar mərkəzində ukraynalı alim Taras Kavetski ilə görüş keçirilib. Görüşdə çıxış edən BDU-nun biologiya fakültəsinin dekanı vəzifəsini icra edən dosent Çingiz Məmmədov qonağı salamlayıb, onu görüşün iştirakçılarına təqdim edib.***



Sonra çıxış edən "Nanobiotexnologiya və Funksional Nanosistemlər üzrə Birgə Ukrayna-Azərbaycan Beynəlxalq Tədqiqat və Təhsil Mərkəzinin" (Joint Ukraine-Azerbaijan International Research and Education Center of Nanobiotechnology and Functional Nanosystems (JUAI-REC-NBFN)) Ukrayna tərəfdən rəhbəri Taras Kavetski səmimi qəbula görə rəhbərliyə öz təşəkkürünü bildirib və BDU-nun elmi-pedaqoji kollektivi qarşısında Yeni polimer matrislərinə əsaslanan üçüncü nəsil perspektiv amperometrik biosensorlar ("Advanced third generation amperometric enzyme biosensors based on novel polymer matrixes") mövzusunda məruzə ilə çıxış edib. Məruzə təkmilləşdirilmiş parametrləri olan üçüncü nəsil perspektiv amperometrik biosensorların yaradılması üçün yeni polimer materiallarının inkişafı və səciyyələndirilməsi problemlərinə həsr edilib. Məruzəçi pozitron anihilyasiya spektroskopiyası metodlarından istifadənin xüsusiyyətlərini göstərib. Məruzə görüş iştirakçıları tərəfindən maraqla qarşılanıb və yekun müzakirədə professor Rövşən Xəlilov, Nanoaraşdırmalar Mərkəzinin direktoru, dosent Mustafa Muradov, professor Ziyəddin Məmmədov, professor Ralfrid Həsənov və digər alimlərin iştirakı ilə geniş fikir mübadiləsi aparılıb.

*Görüşün sonunda birgə qrant layihələrinin və nüfuzlu beynəlxalq jurnallarda elmi nəşrlərin hazırlanması üçün Ukrayna-Azərbaycan Beynəlxalq Elm-Təhsil Mə rkəzi ilə BDU, həmçinin Polşa və Ukrayna universitetləri arasında birgə əməkdaşlığın gələcək perspektivləri müzakirə edilib.*

**BDU Mətbuat xidməti**

# "20 Yanvar" "Mir Şahinin vaxtı"nda

***Bu gün müstəqil Azərbaycan dünyanın sürətlə inkişaf etməkdə olan bir dövlətinə çevrilib. Xalqımız bu müstəqillik uğrunda mübarizədə canını vermiş 20 Yanvar şəhidlərinə Bakının ən uca yerində xiyaban salmış və bu "Şəhidlər Xiyabanı" indi millətin and yerinə çevrilmişdir. Bu and yeri xüsusilə 20 yanvar günündə hər kəsin ziyarət etdiyi bir məkandır.***

Azərbaycan mediası daimi olaraq 20 Yanvar hadisələrini işıqlandırmaq, günahkarları göstərmək, tarixin qan yaddaşını hər gün yada salmaq işində mühüm rol oynayır. Hər il 20 Yanvar günündə bütövlükdə mediamızı xüsusilə telekanallarımız bu hadisəni günün prioritet mövzusu kimi təqdim edir.

20 Yanvar günündə mən hələ doğulmamışdım. Amma Azərbaycan mediasının, telekanallarımızın təqdimatında mən o günü sanki özüm də yaşamışam. Ağlım kəsəndən mən hər il yanvarın 20-də televizor qarşısında bu hadisəni müxtəlif istiqamətlərdən işıqlandırılmasını izləmişəm. BDU-nun Jurnalistika fakültəsinə qəbul olana qədər mən adi bir tamaşaçı olmuşam. Amma mən indi bu fakültənin məzunuyam və medianın hər hansı bir ümumxalq hadisəsinə necə diqqət yetirməsinə həm də nəzəri cəhətdən diqqət edirəm. Bu ilki 20 Yanvar günü, sözün həqiqi mənasında telekanallarımızın əsl peşəkarlıq səviyyəsini göstərdi. Amma 20 Yanvara yeni jurnalist yanaşması zəminində mən istedadlı jurnalist və publisist Mir Şahinin Real TV-dəki bir proqram formatını- "Mir Şahinin vaxtı"nı ayrıca qeyd etmək istərdim.

**Azərbaycan mediası daimi olaraq 20 Yanvar hadisələrini işıqlandırmaq, günahkarları göstərmək, tarixin qan yaddaşını hər gün yada salmaq işində mühüm rol oynayır.**

Proqramın kalambur formatında maraqlı bir sərlövhəsi var idi: "İnam və iman günü". Bu sərlövhə 20 Yanvar gününün tragik və qəhrəmanlıq mahiyyətini özündə əks etdirən bir düşüncə faktıdır. Mir Şahin 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecənin faciə və qəhrəmanlıq kolliziyalarını ustadcasına yaratdığı bir süjet xəttində tamaşaçıya çatdırdı. Burada "çatdırdı" sözü bəlkə də mənim istədiyimi tam əhatə etmir. Ona görə də burada hadisənin müasirləşdirilməsi, şablonlaşmış deyimlərin yeni üslubda təqdimi və ən əsası, hər kəsi düşünməyə, müstəqilliyin nəyə başa gəldiyini anlamağa və bu anlamaq məqamında onun qədrini bilməyə çağırdı. Bu çağırış hətta bəzi məqamlarda birbaşa oldu: o zaman imperiyadan xilas olmaq uğrunda küçələrə çıxdıq, bəs bu gün küçələrə çıxmaqla nə demək istəyirik? Bu sual bizim günlərimizdə Azərbaycanımızın inkişaf sürətini ləngitməyə cəhd göstərənlərin, küçə hərəkatının təşkilatçılarına ünvanlanır.

*Umumimilli Liderimiz Heydər Əliyevin 20 Yanvar hadisəsi ilə bağlı qətliamın səhəri günü Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlməsi, həmin anda hər cür həyati təhlükəyə rəğmən cəsarətlə bu addımı atması, hətta yeganə oğlunu da yanında gətirməsi və 20 Yanvar - qanlı günün günahkarlarını- xüsusilə SSRİ rəhbərliyini ittiham edərək dünyaya bəyanat verməsi Mir Şahinin hər sinxrondan əvvəl verdiyi publisistik şərhlərlə elə müşayiət olundu ki, mən o anda çox-çox yeni faktların və bu faktlara yeni təhlillərin şahidi oldum.*

Süjetdə Heydər Əliyev fenomeninə qiyməti və bundan sonra Prezident İlham Əliyevin müstəqillik uğrunda həyatını əsirgəməmiş 20 Yanvar şəhidlərinə, onların yaxınlarına göstərdiyi sevgisinə keçid məqamına diqqət etdim. Prezident İlham Əliyevin 30 il bundan əvvəl, 20 Yanvar qırğını barədə dünyaya bəyanat vermək üçün Moskvada dünya jurnalistlərinin qarşısına çıxan Heydər Əliyevin yanında olmasını bir daha xatırladım. Və onun öz rəhbərliyi dövründə bu şəhidlərə təəssüfünün, məhəbbətinin, minnətdarlığının hələ o gün- Moskvada atasının qoruyucusu kimi onunla yanaşı getdiyi gün ürəyinə çökdüyünü hiss etdim. Və bir də onu anladım ki, bu gün təkcə ölkə rəhbəri kimi deyil, həm də faciənin ağrılarını elə o gün Moskvada yaşamış bir vətəndaş kimi bir daha xatırlamağa bəlkə də, hamıdan çox İlham Əliyevin haqqı var.

"Mir Şahinin vaxtı" 20 Yanvar şəhidlərinin qəhrəmanlıq salnaməsindən müasir günlərimizdə bu şəhidlərin qanlarını yerdə qoymamış Aprel döyüşlərində şəhid olmuş qəhrəman əsgərlərimizin doğmaları ilə görüşən, onlara təsəlli verən, onlara dayaq olan və bu təsəlli, bu minnətdarlıq anında göz yaşlarını saxlaya bilməyən Birinci vitse-prezident Mehriban xanımla bağlı faktları da təhlil edir və bir daha bizə göstərir ki, şəhidlər heç vaxt ölmürlər, çünki onları əbədi olaraq ürəyinə köçürmüş Azərbaycan xalqı var, onları daim diqqətdə saxlayan İlham Əliyev gücündə bir rəhbər var. Və "Real" ın tamaşaçısı da bilir ki, belə faktları jurnalist peşəkarlığı ilə tamaşaçıya təqdim edən telejurnalist Mir Şahin var. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin məzunu Mir Şahin.

***Günel Mehdizadə (Bayatlı),***
*Jurnalistika fakültəsinin məzunu*

# "SABAH"ın dünəni, bu günü və sabahı

"Sabah" ali təhsildə keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsi və ali təhsil sistemində yeni mühitin yaradılması məqsədilə Təhsil Nazirliyinin tabeçiliyindəki ali təhsil müəssisələrində Savadlı, Bacarıqlı və Hazırlıqlı (SABAH ) tələbələrdən ibarət qruplar zənciridir.



***SABAH qrupları 2014/2015-ci tədris ilində 5 ixtisas istiqaməti (təhsil, texniki, təbiət, humanitar, iqtisadiyyat) 34 ixtisas üzrə 7 ali təhsil müəssisəsində formalaşdırılmışdır. Hazırda SABAH qrupları 11 ali təhsil müəssisəsini, 6 ixtisas istiqaməti üzrə (təhsil, texniki, təbiət, humanitar, iqtisadiyyat, incəsənət) 35 ixtisas, 2500-dən çox tələbəni və 2200-dən çox məzunu əhatə edir. İldən-ilə "Sabah" qrupuna qəbul olmaq istəyənlərin sayı artır. Bakı Dövlət Universitetində 10 ixtisas üzrə 788 tələbə SABAH qruplarında təhsillərini uğurla davam etdirirlər.***

Qəbul qaydasına uyğun olaraq bakalavr pilləsinin I kursunda əyani əsaslarla təhsil alan və orta akademik göstəricisi 61-dən yuxarı olan tələbələr "Sabah" qruplarının imtahanlarında iştirak edə bilərlər. Əlbəttə ki, akademik göstəricinin 61 baldan yuxarı olması SABAH qruplarına qəbulun yalnız elektron ərizə formasını doldurmaqla müsabiqədə iştirak etmək üçün qoyulan yalnız bir başlanğıc kriteriyadır. Sonrakı mərhələ ingilis dili və məntiq imtahanıdır. Sonda isə ümumi dünyagörüşünə dair müsahibə keçirilir. Bütün bunlarla yanaşı müsahibə zamanı tələbənin ümumi dünyagörüşü və adından göründüyü kimi hazırlıqlı olması savadı və bacarıqları qiymətləndirilir. Müsahibədə iştirak edən tələbə bu kriteriyalara cavab verirsə artıq SABAH qrupları tələbəsi adını qazanmış olur.

SABAH qruplarının müəllim-professor heyəti, ümumilikdə 600 nəfərə yaxın olmaqla, ali təhsil müəssisələrinin seçilmiş müəllimləri, Kanada və İngiltərədən dəvət olunmuş yerli dil daşıyıcıları həmçinin Azərbaycandakı yerli və xarici şirkətlərdən dəvət olunmuş peşəkarlardır.

SABAH qruplarında tədris prosesi Ali təhsil müəssisələri haqqında Əsasnaməyə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ-hüquqi sənədləri, əmr və göstərişlərinə uyğun olaraq həyata keçirilir. Tədris planları Təhsil Nazirliyinin SABAH İcra komitəsinin rəhbəri tərəfindən təsdiq olunur.

SABAH qruplarında tədris prosesinin təşkilinin əsasən innovasiyalı formaları tətbiq olunur: interaktiv mühazirələr, praktik və seminar məşğələləri, yüksək səviyyədə təmir olunmuş və elektron lövhələrlə təchiz olunmuş auditoriyalarda aparılır. Əlbəttə ki, bütün bunlar fənlərin tələbələr tərəfindən daha da yaxşı mənimsənilməsinə və ümumiyyətlə dərsin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

***SABAH qruplarında ingilis dili fənni tədris planına əlavə olaraq daxil edilib. Adi qruplardan fərqli olaraq onlar ingilis dilini İV kursa qədər keçirlər. Hər il tələbənin səviyyəsini müəyyən etmək üçün APTİS imtahanları keçirilir. Sonda ona öz səviyyəsinə uyğun sertifikat təqdim olunur.***

SABAH qrupları tələbələrə əlavə təqaüd, bölgələrdə qeydiyyatda olanlar üçün ödənişsiz yataqxana xidməti, xarici mübadilə proqramları, müasir təşkilat və müəssisələrdə tədris və istehsalat təcrübələri, ingilis dilindən əlavə ikinci xarici dil öyrənmək imkanı, bu dillərin əcnəbi müəllimlər tərəfindən tədris olunması, nəzəriyyə ilə praktika arasında əlaqənin sıx həyata keçirilməsi və nəzəri biliklərin praktikada tətbiqini genişləndirmək məqsədilə müxtəlif müəssisə və təşkilatlara ekskursiyaların təşkil olunması əmək bazarında daha cazibədar namizədlərə çevrilmə kimi üstün imkanlar təklif edir.



Məlumdur ki, tədris planına əsasən tələbələr yalnız IV kursda istehsalat və pedaqoji təcrübəyə cəlb olunurlar. Lakin SABAH-ın əsas üstünlüklərindən biri də tələbələrin qəbul olduqları ildən ikinci kurslardan bu təcrübələrə cəlb olunması və bu təcrübələrin tələbələrin öz arzu və istəkləri nəzərə alınaraq həyata keçirilməsidir. Bundan başqa potensialı, istedadı, yaradıcı təfəkkürü olan tələbələrin sağlam rəqabət şəraitində üzə çıxarılması məqsədilə bilik yarışlarının keçirilməsi. və bu kimi bir çox tədbirləri qeyd etmək olar.

XXI əsrin hazırkı mərhələsində təhsil sisteminin qarşısında duran əsas məsələ əmək bazarının tələbatına uyğun məzun tələbələr yetişdirməkdir. Bunun üçün əlbəttə ki, təhsilin keyfiyyəti çox mühüm əhəmiyyət kəsb edir. SABAH qrupları əmək bazarına öz düşüncəsi, ağlı, potensial enerjisi, güclü məntiqi, hər cür situasiyalarda işin məğzini tutub çıxış yolunu tapmağı bacaran yüksək intellektual gənclər yetişdirir.

SABAH qruplarında dərs deyən müəllimlər tələbələrə daxilən azad müstəqil yaradıcı fəaliyyət göstərmək qabiliyyəti olan inkişaf edən bir şəxsiyyət kimi yanaşırlar. Və sosial-iqtisadi həyatın müasirləşdiyi dövrdə tələbələri gələcək həyatında uğurlu olmağa hazırlamaq anlayışı və tələbləri getdikcə dəyişir. SABAH qruplarında tədris prosesini həyata keçirən müəllimlər tədrisi dəyişən tələblər üzərindən qururlar. Onlar daima peşəkarlıq fəaliyyətlərinin təkmilləşdirilməsi istiqamətində Təhsil Nazirliyi tərəfindən təşkil olunan xarici təlimlərdə iştirak edirlər.

***2019-cu ildə Təhsil Nazirliyinin SABAH qrupları layihəsində tədris prosesinə cəlb olunması üçün professor-müəllim heyətinin seçilməsi qaydası haqqında yeni əmr imzalanmışdır. Əmrdə Seçim müsabiqəsinə müraciət etmək üçün tələblər, müsabiqə mərhələləri və müraciət üçün tələb olunan sənədlər daha da təkmilləşdirilərək öz əksini tapmışdır.***

***İradə Süleymanova,***
*"SABAH" qruplarının rəhbəri*



# UNİVERSİTET XƏBƏRLƏRİ

## "Abay ili" tədbirləri Universitetdən başladı



***Bakı Dövlət Universitetində (BDU) Türk Dünyasının ən önəmli şəxsiyyətlərindən biri, qazax şairi, yazıçısı, bəstəkarı, müasir qazax yazılı ədəbiyyatının banisi, filosof, böyük ictimai xadim və maarifçi Abay Kunanbayevin 175 illik yubiley tədbirlərinin və 2020-ci ilin türk dünyasında "Abay Kunanbayev ili"nin açılış mərasimi keçirilib.***

Tədbir Beynəlxalq Türk Akademiyası (BTA), Azərbaycan Respublikası Təhsil Nazirliyi (TN), Bakı Dövlət Universiteti, L.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstanın Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə baş tutub. Açılış mərasimində Beynəlxalq Türk Akademiyasının rəhbərliyi və nümayəndələri, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təhsil nazirlərinin müavinləri və təmsilçiləri, beynəlxalq təşkilatların rəhbərləri, üzv ölkələrin Bakıdakı səfirləri, müxtəlif ölkələrdən nüfuzlu alimlər və ictimai xadimlər iştirak edib.

*Tədbirdən öncə qonaqlar BDU nəzdində fəaliyyət göstərən Abay Kunanbayev adına Qazax dili, tarixi və mədəniyyəti mərkəzini ziyarət edib, kitab sərgisi ilə tanış oldular.*

BTA prezidenti D.Kıdırali tərəfindən 60-dək kitab, o cümlədən Abaya həsr olunan və Akademiya tərəfindən nəşr olunan azərbaycanlı tədqiqatçı Turan Teymurovun "Muxtar Auezovun "Abay" romanında sənətkarlıq məsələləri", qazax alimi Mekemtas Mırzaxmetulının yazdığı "Muxtar Auezov Abayşünas alim", "Abayı oxu, öyrən..." və "Müdrik Abay mirasını öyrənmənin 125 illik tarixnaməsi"kitabları Mərkəzə təqdim olundu.

Mərasim Universitetin böyük akt zalında davam edib.

***BDU-nun rektoru Elçin Babayev Abay Kunanbayevin qazax və türk dünyası ədəbiyyatındakı rolundan bəhs edib.*** *Rektor Türkdilli xalqların ortaq mədəniyyətlərinin, ədəbiyyatlarının, eləcə də tarixi şəxsiyyətlərinin tanınmasına xidmət edən bu səpkili tədbirlərin milli dəyərlərin inteqrasiyasını təmin etdiyini bildirib. Rektor, əsərləri dünyanın bir çox dillərinə tərcümə olunan A.Kunanbayevin dünyagörüşünün formalaşmasında humanist ideyaları təbliğ və tərənnüm edən Şərq alim və şairləri - Füzuli, Nizami, Firdovsi, Əlişir Nəvai kimi görkəmli şəxsiyyətlərlə yanaşı Höte, Krılov, Bayron kimi Qərb mütəfəkkirlərin də rolu olduğunu qeyd edib. E. Babayev nitqində qeyd edib ki, BDU-da "Abay" kitabının təqdimat mərasimi, Qazax xanlığının yaranmasının 550 illiyi və Abay Kunanbayevin 170 illik yubileyi münasibətilə beynəlxalq konfrans keçirilib. Eyni zamanda bildirib ki, Universitetin bir neçə fakültəsində qazaxıstanlı tələbələr də təcrübə keçiblər.*

***Azərbaycan Respublikası Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva türkdilli ölkələr arasında əməkdaşlığın yüksələn xətlə inkişafının Azərbaycan üçün vacibliyindən bəhs edib.*** Qeyd edib ki, Türk dünyası üçün böyük xidmətləri olan şəxslərin həyatlarının öyrənilməsi qarşıda duran əsas məqsədlərdən biridir. M. Vəliyeva böyük şəxsiyyətlərin yubiley tədbirlərinin keçirilməsi gənc nəslin maariflənməsində böyük rol oynadığını və "Abay İli"nin Azərbaycanda qeyd edilməsinin ölkələrimiz arasında əlaqələri daha yüksəklərə daşıyacağına əminliyini vurğulayıb.

Mərasimdə Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali, AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli, Türkdilli Dövlətlərin Parlament Assambleyasının Baş katibi Altınbek Mamayusupov, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış ediblər.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, tanınmış qırğız türkoloq, professor Kadırali Konkobayev, Türkiyənin Avrasiya Yazarlar Birliyinin başqanı Yakup Ömeroğlu, Qazaxıstan Respublikası Avrasiya Milli Universitetinin professoru, türkoloq Amantay Şaripin Abay Kunanbayevin həyat və yaradıcılığına həsr olunmuş məruzələri dinlənilib.

*Mərasim bədii hissə ilə davam edib. Qazaxıstanın əməkdar artisti, professor Kenjeqali Mırjıkbayı və onu müşayiət edən musiqiçi, beynəlxalq mükafatlar laureatı Elena Sahnonun çıxışları maraqla qarşılanıb.*

**BDU Mətbuat xidməti**

# Qori Müəllimlər Seminariyasından BDU-ya

***Azərbaycan xalqının maarif və mədəniyyət sahəsində ixtisaslı və vətənpərvər kadrların səmərəli fəaliyyətində Qori şəhərindəki müəllimlər seminariyasının ayrıca yeri vardır. Onlardan biri də Səməd bəy Acalovdur.***

Səməd bəy Acalov (Hacıəlizadə) 1876-cı ildə Tiflis şəhərində anadan olmuşdur. O, Tiflisin ikisinifli müsəlman məktəbində iki illik təhsil aldıqdan sonra seminariyanın məzunu (1788) olan müəllimi Paşa bəy Hüseynovun təşviqi ilə iki nəfər məktəb yoldaşı ilə birlikdə Qori Müəllimlər Seminariyasında oxumaq üçün həmin şəhərə yollanırlar. Müəllimləri Paşa bəy Hüseynov onlara ərizə yazmaqda və digər lazımi sənədləri hazırlamaqda kömək edir. Qoriyə gedərkən onlar Qazaxdan bir neçə şagirdi həmin şəhərdəki seminariyaya oxumağa qəbula aparan İsa bəy Abakarovla rastlaşırlar. İsa bəy Abakarov Acalovgilin də Qoridə yerləşib imtahana hazırlaşmalarına kömək edir.

Nəhayət, Səməd bəy Acalov təxminən 14-15 yaşında Qori Müəllimlər Seminariyasının tələbələrindən biri olur. S.Acalov seminariyanı bitirdikdən sonra təyinatla Tersk vilayətinin Kizlər dairəsinin Tereke li kəndində iki il, sonra Lənkəran qəzasının Mahmudavar kəndində müəllim işləyir. Lənkərandan Dərbəndə köçürülən Səməd bəy, nəhayət, 1908-ci ildə Bakı şəhərinə köçür.

**Səməd bəy Acalov təxminən 14-15 yaşında Qori Müəllimlər Seminariyasının tələbələrindən biri olur**



Bakıda Səməd bəy altısiniflik şəhər məktəblərinin müdiri təyin edilir. Sovet hakimiyyəti illərində həmin məktəb texnikuma (liseyə) çevrilir. Səməd bəy texnikuma bilikli və mədəni müəllimləri cəlb edir. Buraya Ağaəli Qasımov, Abdulla bəy Sübhanverdixanov, Azad Əmirov, S.M. Qənizadə, Abdulla Şaiq, Qafur Rəşad və dövrün digər nüfuzlu ədibləri və pedaqoqları daxildirlər.

Səməd bəy Acalov 1919-cu ildə "Ali Cəbr", "Cəbr məsələləri" dərsliklərini yazıb çap etdirməklə Azərbaycanda riyaziyyat elminin formalaşmasında böyük xidmətlər göstərmişdir. O, 1923-cü ildə eyni zamanda ADU-nun (hazırkı Bakı Dövlət Universitetinin) tibb fakültəsinə daxil olmuş və 1926-cı ildə ali təhsilini başa vurmuşdur.

*Səməd bəy Acalov 78 yaşında ikən - 1954-cü ildə "Brüsselyozun kliniki müalicəsini öyrənmək üçün materiallar" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.*

Səməd bəy Acalov 90 illik ömrünün 70 ilini maarif sahəsində çalışmışdır.

***Alxan Bayramoğlu,***
*Yeni Media və kommunikasiya nəzəriyyələri kafedrası, professor*

# İordaniyanın səfiri Universitetdə oldu



*İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasına təyin olunmuş səfiri Sami Abdullah Ğoşeh ilə Universitetdə görüş keçirilib.*

Qonağı salamlayan rektor Elçin Babayev BDU-nun beynəlxalq əlaqələrinin genişlənməsindən danışıb, o cümlədən İordaniya ilə təhsil və elm sahəsində əməkdaşlıq əlaqələrinin qurulmasına əhəmiyyət verildiyini qeyd edib.

Görüşdə Universitetin yeni inkişaf strategiyası - 5.0 haqqında danışan rektor bildirib ki, təhsil, tədqiqat, innovasiya və elmi biliklərin kommersiyalaşdırılması, sosial həyat və beynəlxalq əlaqələrin daha da təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir.

Səfir Sami Abdullah Ğoşeh də öz növbəsində iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın yeni hədəflərə uyğun olaraq inkişafına dəstək verəcəyini söyləyib, BDU ilə həyata keçiriləcək layihələrdə tərəfdaş olacaqlarını bildirib.

Görüşdə qarşılıqlı əlaqələrin genişləndirilməsi, tələbə və müəllim mübadiləsi, birgə tədqiqat işlərinin aparılması, layihələrin hazırlanması kimi məsələlər müzakirə olunub.

# Himayəçilər Şurasının növbəti iclası keçirildi



***Təhsil naziri Ceyhun Bayramovun sədrliyi ilə Bakı Dövlət Universitetinin (BDU) Himayəçilər Şurasının növbəti iclası keçirilib.***

İclasda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, universitetin rektoru Elçin Babayev və digər qonaqlar iştirak ediblər.

***Tədbirdə BDU-da son 10 ay ərzində görülən işlər, universitetin 10 illik inkişaf strategiyası və digər məsələlər müzakirə edilib.***

Xatırladaq ki, BDU-nun Himayəçilər Şurasının tərkibinə Təhsil naziri Ceyhun Bayramov, Ədliyyə nazirinin müavini Azər Cəfərov, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, xalq yazıçısı Elçin Əfəndiyev, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev, Rusiya Federasiyası Mühasibatlar ... ("Rusiyanın") Münasibətlərin Təhlili Mərkəzinin İdarə heyətinin sədri Fərid Şəfiyev və "BP" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli daxildir.

**BDU Mətbuat xidməti**

# Müasir dövrün ən böyük təsir vasitəsi - Media

*Media korporasiyaların nəzarəti altında olan bu nəhəng informasiya bazarı elə bir güc halına çatıb ki, "Doğrunu yanlış, yanlışı doğru" kimi göstərəcək qədər ictimaiyyəti yönləndirməyə sahibdir. Qlobal güclər sərmayələrini media sayəsində qorumaqda və artırmaqdadırlar.*

***Media ingilis köklü bir söz olub, ictimaiyyətlə əlaqələr üçün vasitə və yayın orqanlarının hamısını ifadə edir…***

***Medianın əhəmiyyəti və təsiri, dövrümüzdə müzakirəyə ehtiyacı olmayan bir həqiqətdir. Texnologiyanın gündən-günə inkişafı medianı sürətlə böyüyən bir güc halına dönüşməsini təmin etməkdədir. Bu gün dünyanın aparıcı güc mərkəzləri medianın bilgiləndirmə və yönləndirmə təsirindən dolayı ona möhtacdırlar. Reklamdan təbliğata qədər hər cür tanıtım və açıqlamalar media tərəfindən təmin edilməkdədir. Dövlətlərarası psixoloji, siyasi və mədəni savaşlar artıq silah və mərmi ilə deyil, məhz media vasitəsi ilə aparılmaqdadır. Transmilli korporasiyalar yeni bazarlar əldə etmək üçün medianın gücündən yararlanırlar, acımasız rəqabət mübarizəsində medianın gücünə istinad edirlər.***

Fransanın "Dassault Group" korporasiyasına 8,5 milyard dollarlıq bir sərvətlə Serj Dassault rəhbərlik edir

"Doğan Holding" "Star" kanalını 2005-ci ildə 306 milyon dollara alıb

71 yaşlı irlandiyalı Entoni O Relli isə Britaniyada nəşr olunan 175 mətbuat orqanı ilə 100 milyon insanın qapısını döyür.

Artıq dünyanın ən ucqar nöqtəsi belə qlobal informasiya məkanının qarşısıalınmaz təsir gücünün əhatə dairəsində qalır. İnsanlar buradan xəbər alır, fikirləri və baxışları buradan formalaşır və buradan yönləndirilirlər.

Media korporasiyalarının nəzarəti altında olan bu nəhəng informasiya bazarı elə bir güc halına çatıb ki, «Doğrunu yanlış, yanlışı doğru» kimi göstərəcək qədər ictimaiyyəti yönləndirməyə sahibdir. Qlobal güclər sərmayələrini media sayəsində qorumaqda və artırmaqdadırlar. Artıq işğalın da, istismarın da ən təsirli vasitəsi mediadır…

Əslində qlobal informasiya məkanında media korporasiyaların çəki və təsir gücünün nə qədər olduğunu Beynəlxalq Jurnalistlər Federasiyasının 2001-ci ildə Seulda keçirilən beynəlxalq konqresdə təqdim etdiyi arayış da sübut edir. Arayışda qloballaşmanın informasiya və KİV sistemində bir sıra dəyişikliklərə yol açdığı vurğulanır, dünya mediasının «bir ovuc holdinqin» nəzarəti altına keçdiyi barədə həyəcan təbili çalınır.

Beynəlxalq Jurnalistlər Federasiyasının arayışında ən maraqlı məqam məhz qlobal media bazarının 9 korporasiya tərəfindən idarə edilməsi ilə bağlı yazılanlardır: «Qlobal media bazarı 9 holdinq tərəfindən idarə edilir: AOL Time Warner (ABŞ), Bertelsman (Almanya), General Electric, Disney (ABŞ), Sony (Yaponya), Vivendi-Universal (Fransa), News Corporation (ABŞ, Avstralya), AT&T və Viacom. Bu xeyli mürəkkəbləşmiş bir sənayenin ən üst təbəqəsidir. Bu oyunçuları bir-birindən ayıran, sadəcə onların böyüklükləri deyil, eyni zamanda, qlobal fəaliyyət çevrəsidir. Bütün bu şirkətlər gələcəkdəki inkişafları, qlobal bazarda daha böyük pay qazanmaqda görməkdədir».

Bu 7 media maqnatın özünəməxsus özəllikləri də var ki, bu da diqqət




çəkicidir. Siyahıya başçılıq edən Serj Dassault ümumi milyarder iş adamları siyahısında 56-cı yerdədir. «Dassault Group»u ailəsi ilə birgə idarə edən 82 yaşlı maqnatın əsl qazanc yeri isə təyyarə, özəlliklə savaş təyyarələri istehsalıdır. «Şpring er» korporasiyasının qurucusu olmuş Aksel Şpriqerin həyat yoldaşı, 65 yaşlı Frida Şprinqer isə dünyanın ən zəngin 335-ci adamıdır. O, 27 ölkədə 150-dən artıq yayın quruluşuna sahibdir. Hindistanda nəşr edilən «Times of İndia»nın əsasında korporasiyasını qurmuş olan 71 yaşlı Cein isə, Cənub-şərqi Asiya bölgəsində ən çox tiraja malik ingilisdilli qəzetlərin sahibidir. O, dünyanın 317-ci ən varlı insanıdır. Dünyanın ən varlı 562-ci adamı olan, «İndependent News and Media»nın sahibi, 71 yaşlı irlandiyalı Entoni O Relli isə Britaniyada nəşr olunan 175 mətbuat orqanı ilə 100 milyon insanın qapısını döyür. 78 yaşlı ispan Xeus de Polanko isə, «El Pais» korporasiyası ilə İspaniyanın media sektorunu öz hissəsinə nəzarət etməklə yanaşı, eyni zamanda Latın Amerikası ölkələrinin informasiya bazarına da daxil olmaqdadır. O, dünyanın 258-ci ən varlı adamıdır. 2004-cü ildə Konrad Blekin rəhbərlik etdiyi «Hollinger Group»dan məşhur «Teleqraph» qəzetini alaraq media sektorunda sürətli irəliləyişə nail olmuş ingilis Devid və Fredirik Barkli qardaşları isə Avropa media bazarına nüfuz etməkdədirlər.

Qardaş Türkiyədə yerləşən «Doğan Yayın Holding»in sahibi Aydın Doğan isə ölkəsində çap olunan qəzetlərin toplam tirajından yüzdə 40 faiz pay sahibidir. Mübaliğəsiz demək mümkündür ki, Türkiyənin informasiya bazarı birmənalı olaraq bu korporasiyanın nəzarəti altındadır. Bu qrupa məxsus qəzetlər «Hürriyyət», «Milliyyət», «Radikal», «Posta», «Turkish Daily News» Türkiyənin ən çox satılan mətbuat orqanlarıdır. Ölkənin aparıcı televiziya kanalları olan «Kanal D», «CNN Türk», «Star» adı çəkilən holdinqə məxsusdur. Qeyd etmək lazımdır ki, «Doğan Holding» «Star» kanalını 2005-ci ildə 306 milyon dollara alıb.

*1957-ci ildə Ceyms Vaykeri maraqlı eksperiment həyata keçirir: kinoteatrda film nümayişi zamanı 1/300 saniyədə «Koka kola için» və «Popkorn yeyin» sözləri yazılmış kadr nümayiş etdirilir. Nəticədə filmin nümayişi sona çatdıqdan sonra, kinoteatrı tərk edən tamaşaçılar pop korn və kola satıcılarını «mühasirəyə» alırlar. Həmin eksperiment tarixə «25-ci kadr» adı ilə daxil olur və ilk dəfə mediadan psixotron silah kimi istifadə etməyin mümkünlüyünü tam çılpaqlığı ilə ortaya qoyur.*

***Vüqar Ziferoğlu,***
*Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru*

# Dilçilik elmimizin korifeyi: professor Əlövsət Abdullayev

**Filologiya emləri doktoru, professor, Filologiya fakültəsinin o zamankı dekanı Əlövsət Abdullayevlə ilk tanışlığım Bakı Dövlət Universitetində tələbəlik illərimin ilk günlərinə düşdü. Azərbaycan dilçilik elminin korifey siması, Filologiya fakültəsinin sayılıb-seçilən professoru Əlövsət Abdullayev öz insanlıq ləyaqəti ilə hər kəsin hörmət etdiyi bir insan idi. Belə böyük bir alim, belə böyük bir insan şəhərə düşdüyüm o ilk qərib günlərimdən mənə atalıq əlini uzatdı.**

***Əlövsət müəllim əslən Şamaxılı idi. 1920-ci ildə Şamaxının qədim Məlikçobanlı kəndində doğulmuşdu. Ömrünün uzun illərini Bakıda yaşasa da, doğma kəndinə, bu kəndin sadə adamlarına çox bağlı idi. Sonralar mən bir neçə dəfə əziz müəllimimlə bu kəndə gəlmişəm və bu kəndin camaatının - uşaqdan böyüyə hər kəsin onu məhəbbətlə qarşıladığının şahidi olmuşam.***

Əlövsət Abdullayev iki ünvanda - Məlikçobanlıda və Ucarın Yuxarı Şilyan kəndində orta məktəbdə oxumuşdu. Tanrı Əlövsət müəllimin taleyinə - uşaqlıq, gənclik dövrünə ağır müharibəli illər salsa da, o, həmişə yaxşı adamların əhatəsində olub. Deməli, Tanrının sevgisi həmişə mənim müəllimimin üstündə olub.

Əlövsət Abdullayev lap orta məktəbdən ədəbiyyata, doğma dilə sevgi hissi ilə yaşayıb və elə bu duyğular onu əvvəlcə Şamaxı Pedaqoji Texnikumuna gətirib. Buranı bitirəndə ədəbiyyatımıza və dilimizə o böyük sevgisi onu Azərbaycan Dövlət Universitetinə, sonralar bütöv bir ömür həsr etdiyi Filologiya fakültəsinə gətirir. Amma o zaman “Böyük Vətən müharibəsi” dediyimiz o dünya savaşı tələbə Əlövsətin təhsilini yarımçıq qoyur. O, müharibəyə, döyüş cəbhəsinə yola düşür. Müxtəlif cəbhə xətlərində döyüşən 22 yaşlı bu əsgər savaşdan ciddi yara alır və ordudan təxris olunur. Ancaq nə qədər çətin olsa da, yaraları sağalan kimi yenidən kəndə qayıdır. 1942-1946-cı illərdə dörd il doğma Məlikçobanlı kəndində bir vaxtlar şagirdi olduğu məktəbə direktor təyin edilir. Ancaq ədəbiyyatımıza, dilimizə olan sonsuz marağı Əlövsəti yenidən ADU-da təhsilini davam etdirməyə çağırır. Və o, 1950-ci ildə artıq Filologiya fakültəsinin məzunu olur. Elə həmin il aspiranturaya qəbul olur və bundan sonra onun elmi-pedaqoji fəaliyyəti başlayır.

***Əlövsət Abdullayevin elmi-pedaqoji fəaliyyəti Azərbaycan dilçiliyi ilə bağlıdır. Həmişə şahidi olmuşuq ki, bu filoloq dilçiliyin ən çətin sahəsinin tədqiqini öz üzərinə götürüb.*** Dilçiliyin az qala bütün sahələri Əlövsət müəllimin tədqiqat obyektidir. Onun dissertasiya mövzuları - həm namizədlik, həm də doktorluq mövzuları fundamental xarakter daşıyır. Aspiranturada oxuduğu üç il ərzində “Müasir Azərbaycan dilində xüsusiləşmələr” kimi indiyədək heç kimin qələm vurmadığı mürəkkəb, orjinal və aktual bir mövzuda dissertasiya müdafiə edir. Müdafiədən cəmi bir neçə il sonra - 1962-ci ildə bu alim - pedaqoqu Unversitetin ən qədim fakültəsinə - Filologiya fakültəsinə dekan seçirlər. Bütün universitetin etimadını doğruldan bu cavan oğlan 1963-cü ildə dilçilik elminin daha bir aktual mövzusunda- “Azərbaycan dilində tabeli mürəkkəb cümlələr” mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Əlövsət müəllimin bu əsərləri sonralar ayrı-ayrı dərslik və dərs vəsaitləri kimi nəşr olundu



*Əlövsət Abdullayev*

və bu kitablar tələbələrin, müəllimlərin bütöv bir nəslinin elmi sahəsinə çevrildi. Beləliklə, Əlövsət Abdullayevin özünəməxsus dilçilik məktəbi yarandı. Onunla bir dövrdə filologiya elminin ən çətin sahələrini tədqiq edən akademik Ağamusa Axundov Əlövsət müəllimi “çətin mövzular tədqiqatçısı” adlandırırdı. Azərbaycan filoloji elminin böyük alimləri - akademik Tofiq Hacıyev, akademiyanın müxbir üzvü, ləyaqətli, orjinal alim Yaşar Qarayev, yeni nəslin nümayəndələri İsmayıl Məmmədov, Kamil Vəli Nərimanoğlu, Elbrus Əzizov... kimi alimlər Əlövsət Abdullayevi özlərinə məktəb sanırdılar.

Əlövsət Abdullayev 1962-1997-ci illərdə Filologiya fakültəsində dekan işlədi. 1972-1976-cı illərdə Azərbaycan Dövlət Universitetinin prorektoru oldu. 1967-1985-ci illərdə isə ömrünü həsr etdiyi Azərbaycan dilçiliyi kafedrasının müdiri oldu.

*Mən bu tarixləri dəqiqliyi ilə niyə yadda saxlamışam? Çünki o, dekan olanda mən Filologiya fakültəsindəki Jurnalistika şöbəsinə qəbul olmuşam.* Azərbaycan dilçiliyi kafedrasında onun öz tövsiyəsi ilə mətbuat dilinə bağlı namizədlik dissertasiyası işləyib, müdafiə etmişəm. O, Universitetin prorektoru olanda mənim talismanım, Jurnalistika fakültəsinin dekanı Şirməmməd Hüseynovun təklifi ilə Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasına birbaşa baş müəllim keçmişəm. (Baş laborantlıqdan birbaşa baş müəllim keçmək hər kəsə nəsib olmurdu). Qalan bütün dövrdə güclü bir himayədarım kimi ona və Şirməmməd müəllimə arxayın olmuşam.

***Bu gün Universitetin Filologiya fakültəsində vaxtilə Əlövsət müəllimin müdiri olduğu kafedraya onun qızı Sənubər xanım rəhbərlik edir.*** Mən hər dəfə bu istedadlı xanımı - filologiya elmləri doktoru, professor Sənubər xanımı görəndə sanki əziz, doğma müəllimimi görürəm. Bu da bir tale qismətidir. Əlövsət müəllimin varisi Universitetimizin dəhlizlərində hər görüşdə bizə onu xatırladır və biz bu istedadlı xanımın varlığından təsəlli tapırıq.

***Əlövsət müəllimi bu gün də Universitetin Filologiya fakültəsində sevgi və hörmətlə xatırlayırlar. Akademik Nizami Cəfərov onun haqqında dərin hörmət və minnətdarlıq hissilə danışır:*** “Əlövsət müəllim bu dünyaya ancaq yaxşılıq eləməyə gəlmişdi. Fakültədə və Universitetdə yaşlı nəsildən elə bir insan tapmaq çətindir ki, onun haqqında söhbət düşəndə ürək sözlərini deməsin. Əlövsət müəllim Azərbaycan dilçiliyinə təkcə bir alim kimi deyil, həm də bir vətəndaş kimi xidmət edirdi. Onun alimlik və vətəndaşlıq ləyaqətini bütün Universitet qiymətləndirirdi”. Mənə elə gəlir ki, təkcə dilçiliyimizin inkişafı sahəsində deyil, bütövlükdə Azərbaycan və habelə türk dünyası ictimai fikrində elmi ictimaiyyətin hörmətlə qarşıladığı Nizami Cəfərov kimi bir alimin yetişməsindəki roluna görə də Əlövsət müəllimin qiymətini vermək olar.

Mən Universitet həyatımda qəribə bir hissə malikəm: Əlövsət müəllimə hörməti olan hər kəs mənə doğma və əzizdir.

Çünki məni əziz və doğma Əlövsət müəllimlə min bir tellər bağlayır. Bu tellər heç vaxt kəsilə bilməz, qırıla bilməz, çünki o tellərin bünövrəsini ömrümdə əbədi izi qalan Əlövsət müəllim özü qoyub. Mən bu gün onun ruhu qarşısında baş əyirəm və övladlarıma, nəvələrimə, yaxınlarıma qürurla bildirirəm: bu dünyada yaxşı nəyim varsa, hamısına görə doğmalarımla, müqəddəslərimlə birlikdə üç böyük insana borcluyam. Əlövsət Abdullayevə, Nəsir İmanquliyevə və Şirməmməd Hüseynova!

***Cahangir Məmmədli,***
*Yeni Media və kommunikasiya nəzəriyyələri kafedrasının müdiri, professor*

# Çində ali təhsil sistemi

Ölkədə 100-dən çox nüfuzlu ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan ən tanınmışı Pekin və Sinxua universitetləridir. Çində dövlət son vaxtlar təhsilə 100 milyard dollardan artıq vəsait ayırır.

*Çində təhsilin qədim tarixi var. İlk məktəblər b.e.ə. III əsrdə hökümət tərəfindən maliyyələşən məktəblərdən və özəl məktəblərdən ibarət idi. İkinci əsrdə isə ibtidai, orta və ali məktəbləri nəzərdə tutan çoxpilləli (üçpilləli) təhsil sistemi yaranmışdır. X əsrədək olan dövrdə isə universitet tipli ilk tədris ocaqları, orta əsrlərdə isə Pekində və Nankində ixtisaslaşdırılmış ali təhsil müəssisələri meydana çıxmışdır. İbtidai məktəbdə təhsil müddəti 5-6 il idi və şagirdlər növbəti pillədə təhsillərini davam etdirirdi. Bu məktəblərdə fənlərin tədrisinə ciddi fikir verilmir və tədris proqramı olmadığı üçün 1905-ci ilədək şagirdlərin yüksək səviyyədə bilik əldə etmədikləri özünü əks etdirirdi.*

Şərqi Asiyada yerləşən Çin Xalq Respublikasında mövcud olan çoxşaxəli təhsil sistemi dövlət nəzarətindədir. 1949-cu ildən etibarən Çin Kommunist Partiyası təhsilin idarə olunmasında mühüm rol oynayır. Çin Kommunist Partiyasının müəyyən etdiyi geniş təhsil strategiyasında təhsilin keyfiyyətinin yüksəldilməsi müasirləşdirmə ilə əlaqələndirilib. Partiya təhsil strategiyasının icrasına nəzarət edir, təhsil müəssisələrində işin təşkilini istiqamətləndirir.

Çində ali təhsilin səviyyəsi yüksək və əhatə dairəsi çox genişdir. Son illər bakalavr təhsil pilləsində təhsil alanların və doktorluq dərəcəsinə malik olanların sayı dəfələrlə artıb. ***Ölkədə 100-dən çox nüfuzlu ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan ən tanınmışı Pekin və Sinxua universitetləridir.*** Çində dövlət son vaxtlar təhsilə 100 milyard dollardan artıq vəsait ayırır.

1980-ci illərin əvvəllərindən başlayaraq elm və texnologiyanın inkişafı təhsil strategiyasının prioritetinə çevrilib.

Çinin ali təhsil sistemi Amerika Birləşmiş Ştatlarının (ABŞ) və Birləşmiş Krallığın ali təhsil sistemlərinin vəhdətindən ibarət olsa da, daha çox ABŞ təhsil sisteminə bənzəyir. Ölkədə ali təhsil pilləsi əsasən ödənişlidir. Ali təhsil üç mərhələli bakalavr, magistratura və doktorantura pillələrindən ibarətdir.

*Bundan əlavə, dərəcə verməyən proqramlar üzrə tədris aparılan universitetlər də var. Magistratura və doktorantura dərəcəsi müvafiq Dövlət Şurası tərəfindən akkreditasiyadan keçmiş universitetlər və tədqiqat müəssisələrində verilir.*

Ölkənin ali təhsil sistemində həm 3 illik, həm də 4 illik proqramlar tədris olunur. 3 illik proqramların tədrisi istənilən ali təhsil müəssisəsində aparılır. 4 illik proqramlar isə 4 illik kolleclərdə və ya universitetlərdə tədris olunur. 4 illik proqramlardan fərqli olaraq, 3 illik proqramların sonunda bakalavr dərəcəsi verilmir. Tələbə 3 illik proqramın davamı kimi əlavə olaraq 2 il təhsil aldıqda bakalavr dərəcəsinə sahib ola bilər.

Ölkənin ali təhsil müəssisələri - texniki və humanitar universitetlər, kənd təsərrüfatı, xarici dillər və tibb sahələri üzrə ixtisaslaşmış ali təhsil müəssisələri, peşə kollecləri, müəllim hazırlığı müəssisələri və ixtisaslaşmış kolleclər kimi qruplara bölünür.

***Pekin Universiteti (Peking University).*** Bu universitet Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində yerləşir və ölkənin ən aparıcı ali təhsil ocaqlarından biridir. Pekin Universiteti xalq arasında "Beyda" adlandırılır. Böyük nüfuza malik Pekin və Sinxua universitetləri mükəmməl tədris və tədqiqat imkanlarına görə beynəlxalq miqyasda tanınır. Çin diplomların qarşılıqlı tanınması sahəsində 40 ölkə ilə, o cümlədən Fransa, Böyük Britaniya, ABŞ, Rusiya və digər ölkələrlə müqavilələr imzalayıb.

Ölkədə ali təhsil pilləsi əsasən ödənişlidir.

Dünya üzrə tanınmış Pekin Universiteti müasir Çin ədəbiyyatı, poeziyası və incəsənətinə böyük töhfələr bəxş edib. Fəaliyyəti dövründə universitet özünü intellektual azadlıq məkanı kimi tanıdıb. Universitet bütün elm və tədris sahələrinin cəmləşdiyi tədqiqat və təhsil mərkəzidir. Məqsədi XXI əsrdə dünyanın bir nömrəli ali məktəbinə çevrilmək, Çinin müasirləşdirilməsinə, dünyanın iqtisadi, sosial və texnoloji inkişafına öz töhfəsini vermək, yeni-yeni gənc istedadları aşkarlayıb dünyaya təqdim etməkdən ibarətdir.

***Gülnarə Sadıqova,***
*Yeni Media və kommunikasiya nəzəriyyələri kafedrası, dosent*

# EKVATORDAN QÜTBLƏRƏ

***Bakı Dövlət Universitetində elmin və təhsilin inkişafı istiqamətində aparılan islahatlar Coğrafiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin fəaliyyətində də öz əksini tapmışdır. Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin əsas istiqamətləri tələbələrdə elmi tədqiqat işlərinə dair marağın yüksəldilməsindən, elmi-ideoloji şüurun yaradılmasından, elmi-praktiki layihələrin hazırlanmasına dair bilik və bacarıqların, həmçinin milli innovasiya sisteminin formalaşdırılmasından ibarətdir.***

*Coğrafiya fakültəsi Tələbə Elmi cəmiyyətinin elmi rəhbəri Geodeziya və kartoqrafiya kafedrasının dosenti Əfqan Talıbov və cəmiyyətin sədri, 4-cü kurs tələbəsi Mətanət Mehdiyevadır. Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərdiyi son illər ərzində müxtəlif elmi nailiyyətlərə də imza atmışdır. Belə ki, bu illərdə "Ekoloji problemlər", "Bakı şəhərində baş verən sürüşmə prosesləri və onlara qarşı tədbirlər", "Dünya elmində coğrafiya", "Feminizim", "Kəpənək effekti", və s. mövzuda elmi seminarlar, təlimlər və konfranslar keçirilmişdir.*

Bu illər ərzində Tələbə Elmi Cəmiyyətinin ən çox maraq doğuran layihəsi "Ekvatordan qütblərə" adlı elmi jurnalı olmuşdur. Jurnal TEC-in üzvləri tərəfindən elmi-publisistik janrda tərtib olunur. "Ekvatordan qütblərə" jurnalı tələbələri müasir dövrdə baş verən coğrafi hadisələrlə tanış edərək onların maariflənməsində aparıcı rol oynayır. Məhz bu jurnal TEC-in öz gənc üzvlərinin dilindən müasir dövr coğrafiyasını şərh etməyə imkan verir. Jurnal üçün tərtib olunan məqalələr müxtəlif dillərdə və müxtəlif mənbələrdən yararlanaraq yazılır. Hal-hazırda jurnalın bu il çıxacaq növbəti sayı üzərində işlər aparılır.



*Tələbə Elmi Cəmiyyətinin ən çox maraq doğuran layihəsi "Ekvatordan qütblərə" adlı elmi jurnalı olmuşdur*

Bunlarla yanaşı tələbələrin fəaliyyəti nəticəsində Tələbə Elmi Cəmiyyətinin xətti ilə "Azərbaycanın inzibati rayonlarının coğrafi səciyyəsi" adlı kitabı nəşr edilmişdir. Hal-hazırda da tələbələr "Azərbaycan Coğrafiyası" adlı kitab üzərində çalışırlar və bu kitabın nəşri aprel ayına nəzərdə tutulub.

Hər il təşkil olunan Respublika səviyyəli konfranslarda bakalavr və magistratura pilləsində təhsil alan tələbələrin elmi məqalələri konfrans materialları şəklində nəşr edilir. Bu konfrans materiallarında digər universitetlərdə təhsil alan tələbələr də elmi məqalələrlə çıxış edirlər.

2019-cu ilin may ayında Coğrafiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin Bakı Dövlət Universitetinin yaradılmasının 100 illiyinə həsr olunmuş "Müasir dövrdə təbii və antropogen dəyişikliklərin coğrafi tədqiqi" mövzusunda elmi konfransı keçirilmişdir. Bu konfransda Ekvatordan qütblərə jurnalının "100 illiyə 100 xatirə" adlı nömrəsi və 150-dən artıq tələbənin elmi məqalələrinin toplandığı konfrans materialları da təqdim edilmişdir.

Konfransda Tələbə Elmi Cəmiyyətinin universitet üzrə rəhbəri dosent Vaqif Qasımov, Coğrafiya fakültəsinin dekanı dosent Şəkər Məmmədova, Tələbə Elmi Cəmiyyətinin rəhbəri, dosent Əfqan Talıbov, dekan müavinləri və kafedra müdirləri öz tövsiyələrini tələbələrə çatdırıblar.

Hal-hazırda sosial şəbəkələrdə Tələbə Elmi Cəmiyyətinin fəaliyyətini geniş şərh edən səhifə yaradılmışdır. Bu səhifədə TEC haqqında bütün elan və məlumatlar müəllim və tələbələrə çatdırılır. Daim böyüyən Coğrafiya TEC ailəsi öz fəaliyyətini yüksək səviyyədə həyata keçirir və bunun gələcəkdə də davam etdirilməsinə böyük səy göstərərək Bakı Dövlət Universiteti rəhbərliyinin etimadını qazanmağa çalışacaqdır.

***Mətanət Mehdiyeva,***
*Coğrafiya fakültəsinin*
*IV kurs tələbəsi*

REKTORLARIMIZ...

## "Şərqin ilk dünyəvi ali təhsil ocağı" olan BDU-ya kimlər rəhbərlik edib?

*Hörmətli oxucu! Yola saldığımız il ölkəmizdə "Universitetlərin Şahı olan BDU-nun" 100 illiyi böyük ruh yüksəkliyi ilə qeyd edildi. "BDU-nun rektorları" rubrikası altında təqdim etdiyimiz silsilə şəklində çap olunan məqalələr də bu 100 il ərzində BDU-ya rəhbərlik edən rektorların keçdiyi çətin və şərəfli yola nəzər salınır, onların idarəetmə mədəniyyəti, elmi nailiyyətləri və ən əsası universitetin inkişafı üçün gördüyü işlərdən bəhs edilir. Zəngin arxiv faktları, müşahidələr və xatirələr əsasında yazılan bu məqalələrin hər birində onların dünyagörüşü, həyata baxışı ilə yanaşı xeyirxahlığından, müdrikliyindən daha geniş söhbət açılır. Bu danılmaz bir faktdır ki, 100 yaşını qeyd edən BDU-nun Azərbaycan elminin, təhsilinin inkişafında özünəməxsus yeri var və bu özünəməxsusluğun qazanılmasında BDU-nun rektorlarının əməyini inkar etmək olmaz. Onlar tarixən elə seçilmişlər ki, bir çox müəssisə rəhbərlərindən fərqli olaraq, onların hər biri böyük vətəndaş, böyük alim, böyük təşkilatçı kimi tariximizə düşmüşlər". Buyurun, oxuyun və bilin ki, "Şərqin ilk dünyəvi ali təhsil ocağı" olan BDU-ya kimlər rəhbərlik edib?*



**V.İ.Razumovski**

# İLK REKTORUMUZ

1857-ci ilin bir yaz axşamı Simbirsk vilayətində anadan olan Vasili ilk təhsilini də orada alıb. 1880-ci ildə Kazan Universitetinin tibb fakültəsini bitirib və dörd il sonra tibb elmləri doktoru elmi dərəcəsini alaraq, həmin universitetin operativ cərrahlıq kafedrasında işə başlayıb. Sonra 1887-ci ildə professor adına layiq görülən Vasili elə həmin illər ərzində həm də hospitalda, fakültə cərrahlığı klinikasında işləyib.

1917-ci ildə V.İ.Razumovski Qafqaz ordusunun baş cərrahı təyin edilir və Tiflisə göndərilir. Lakin Vasili Tiflisdə yalnız ordunun baş cərrahı kimi fəaliyyət göstərmədi. O, həm də Cənubi Qafqazda Tiflis Rus Universitetinin layihə və smetasının hazırlanması üçün yaradılan komissiyaya başçılıq edib. Nəticədə "Tiflisdə fəaliyyət göstərən Ali qadın kursları 1918-ci ilin iyulunda üç fakültədən təbiət, tarix-filologiya və tibb fakültələrindən ibarət olan Zaqafqaziya Universitetinə çevrildi. Professor V.İ.Razumovski tədrisin rus dilində aparıldığı bu universitetin rektoru vəzifəsinə seçildi. Amma yarandığı ilk gündən universitet respublikalar arasında siyasi ziddiyyətlərlə və böyük maliyyə çətinlikləri ilə rastlaşdı".

***Belə bir vaxtda Azərbaycan Xalq Cümhuriyyəti Maarif Nazirinin müavini Həmid bəy Şahtaxtinski professor V.İ.Razumovskiyə teleqram göndərib bildirir ki, "Bakıda yeni universitet açılır və hökumət ondan universitetin təşkilini öz üzərinə götürərək, bu məqsədlə komissiya yaratmasını xahiş edir".***

Universitetdə tədrisin rus dilində aparılması ictimaiyyət arasında narahatlığa da səbəb olur. Bəziləri "burada tələbələrə elm öyrətməkdən daha çox, missionerlik edərək çarizmin milli siyasətinin təbliğ ediləcəyindən" narahat olduğunu bildirirlər. Universitetin açılması ərəfəsində başlanan bu söz-söhbətlər, hətta, o dövrün mətbuat səhifələrinə, parlamentin plenar iclaslarına, siyasi partiyaların toplantılarına da yol açır. Azərbaycanlı ziyalıların narahatlığını hiss edən V.İ.Razumovski hökumət və parlament üzvləri ilə görüş keçirərək onları tam əmin edir ki: "onların yeganə məqsədləri gənclərə elm öyrətməkdən ibarət olacaqdır". Vədinə xilaf çıxmayan V.İ.Razumovski 1919-cu ilin 8 sentyabrından, 1920-ci ilin 26 mayınadək BDU-ya rəhbərlik edir.

"Azərbaycanda universitet təhsilinin təməlinin qoyulmasında" çox böyük əməyi və rolu olan V.İ.Razumovskinin bu sahədəki xidmətlərini o zaman BDU da fəaliyyət göstərən Birləşmiş Cəmiyyətlər Şurası yüksək qiymətləndirmişdir: "...Siz bizim universitetin yaradılması və inkişafı işinə nə qədər qüvvə, məharət və bilik sərf etmiş, bu vəzifənin zəruri, lakin çətin vəzifə olduğu bir məqamda onu həyata keçirməyə, maarif işinə dərin məhəbbət və böyük mərdliklə girişmisiniz. Bizim üçün Siz universitetin qəlbi idiniz, hamı üçün eyni dərəcədə hörmətli və eyni dərəcədə əziz idiniz".

*Bu gün də, sabah da hər bir Azərbaycanlı BDU-nun yaranmasından və fəaliyyətindən söz açanda Vasili İvanoviç Razumovskiyə Tanrıdan rəhmət diləyir.*

***Qərənfil Dünyaminqızı,***
*Milli mətbuat tarixi*
*kafedrası, dosent*

# BDU alimi Beynəlxalq Atatürk Mükafatına layiq görüldü

*Tarix fakültəsinin kafedra müdiri, AMEA Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Beynəlxalq Mükafat Komitəsinin 2019-cu il 20 dekabr tarixli qərarı ilə Beynəlxalq Atatürk Mükafatına layiq görülüb.*

Yaqub Mahmudova bu mükafat Türk Dünyası elmi və təhsilindəki böyük xidmətlərinə görə verilib. Tarix İnstitutunun Elmi Şuranın iclasında Yaqub Mahmudova mükafatın diplomu, döş nişanı və üzərində Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün şəkli olan xatirə lövhəsi təqdim edilib.

Qeyd edək ki, Yaqub Mahmudov bundan əvvəl Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü seçilib və türk dünyası elminə verdiyi böyük töhfələrə görə akademiyanın "Beynəlxalq Qızıl Ulduz" medalı ilə təltif edilib.

# "Equinor" şirkətinin Azərbaycan üzrə rəhbəri BDU-da

*Norveçin Equinor şirkətinin Azərbaycan üzrə rəhbəri Favad Quraişi Bakı Dövlət Universitetində olub.*

Qonağı salamlayan rektor Elçin Babayev BDU-nun beynəlxalq əlaqələrinin genişlənməsindən və Universitetin yeni inkişaf strategiyasından danışıb.

Görüşdə Favad Quraişi Equinor şirkətinin Azərbaycandakı fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat verilib. Eyni zamanda şirkətin Azərbaycanın aparıcı universitetləri, elm və təhsil müəssisələri ilə əlaqələrin qurulmasında maraqlı olduğunu qeyd edib.

*Görüşdə qarşılıqlı əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.*

## TƏLƏBƏ GUŞƏSİ

**...Sonuncu sualın yekun cümlələrini yazdıqdan sonra imtahan vərəqini nəzarətçiyə təhvil verir, əşyalarımı götürür və auditoriyadan çıxıram. Adətim üzrə bufetə gedirəm. Bu, az qala, dörd ilə yaxındır davam edən adətimdir. Sanki bir az bufetdə oturub dincimi almamış imtahan stresini canımdan çıxara bilmirəm. Bufetdə yer tapmaq yenə də çətindir. Deyəsən imtahandan çıxan əksər tələbələr mənim kimi bura pənah gətirirlər.**



# Bufetdəki son günlərim

Yeməklərə, şirniyyatlara nəzər yetirirəm. Bir şokolad götürürəm. Həm kofenin, həm də şokoladın pulunu kassaya ödəyirəm. Bufetdə vahid ödəmə məntəqəsinin olması, qiymətin alınan malların üzərində yazılması çox yaxşı haldır. Belə də qarışıqlıq yaranmır. Hər kəs növbə ilə istədiyini alır. Əslində bufetimiz bu il əsaslı təmir olunduqdan sonra burada qeyd etdiyim sistem tətbiq olunur. Əvvəllər isə yeməkxanada bir pərakəndəlik var idi, narazılıq ifadə edən səslər ətrafı bürüyürdü, indi bufetin daxili mühiti qat-qat yaxşıdır.

İki tələbə yoldaşım mənə yaxınlaşır. Çöhrələrindən imtahan suallarını yaxşı yazdıqları hiss olunur. Birlikdə bəzi mübahisəli sualları müzakirə edirik. Çox oturmurlar. Nə isə işləri var. Mən isə tələsmirəm. Hələ saat yarım, yəni əməkdaşı olduğum "Şərq" qəzetinə gedənə kimi burdayam.

Tələbələr bir-bir, iki-iki bufetə gəlirlər. Getdikcə adam çoxalır. Əksəriyyətinin əlində kitab, dəftər var. Sözsüz, belə də olmalıdır. Tələbənin kimliyi əlində tutduğu kitabdan, konspektlərdən məlum olar. Xüsusilə də Bakı Dövlət Universiteti kimi qədim və fundamantal ali məkəbdə təhsil alırsansa, gərək bura layiq tələbə olasan.

Bizdən bir qədər aralıda təxminən on beşə yaxın tələbə üç masanı yan-yana birləşdiriblər. Tort kəsirlər. Yəqin, hansısa birinin ad gününü qeyd edirlər. Xatirə üçün foto, video çəkirlər. Həm yoldaşımla danışır, həm də onları müşahidə edirəm. Çox bəxtiyardırlar. Qeyri-iradi birinci kursda oxuduğum vaxtlar yadıma düşür. O qədər tortlar kəsmişik ki, tədris binamızın bufetində. Deyir, gülür, zarafat edirlər. Heç yarım saat keçmədən onların arasında qaraşın bir qız ayağa qalxır. Digərləri ona öz hədiyyələrini təqdim edirlər. Hə, deməli, ad günü olan bu tələbə imiş. Qız bir-bir hədiyyələri qəbul etdikdən sonra birlikdə masanın üstünü təmizləyir, masanı, stulları səliqəyə salır və bufetdən çıxırlar. Kim nə deyir desin, Azərbaycan gənci özünün mədəniyyəti, ədəb-ərkanı ilə çox millətə nümunə ola bilər.

Psixoloq dostumla xeyli söhbət edirik. İnsan bufetdə heç zamanın necə keçdiyini də bilmir. Çünki qayğısız olduğumuzu hiss edirik. Saatıma baxanda artıq "Azərbaycan" nəşriyyatına getmək lazım olduğunu başa düşürəm. Yoldaşımla sağollaşır və tədris binasından çölə çıxıram. Qəfil fikrimi dəyişirəm və "Bir neçə dəqiqədən heç nə olmaz" deyə düşünərək tələbələrin bəzən də mübaliğə ilə "Restoran" adlandırdığı əsas tədris binasında yerləşən"19&19" kafesinə gedirəm. Burada sıxlıq daha çoxdur. Qab-qacaq səsləri, insanların danışığı bir-birinə qarışıb. Təki bufetlərimiz həmişə belə səs-küylü, tələbələrimiz mehriban olsunlar. Bu bufetdə çay içə biləcəyim ümidilə piştaxtaya yaxınlaşıram. Amma, maşallah, sıra o qədər çoxdur ki...Universitetimizin mühafizə rəisinin müavini Paşa dayı da buradadır. Ətrafda gəzir. Nədənsə tələbələr onu yaman çox istəyirlər. Düzü, o da həmişə bizə diqqətlə yanaşır.

**Təqdirəlayiq hallardan biri də bufetdəki səliqə-səhmandır. Bu işdə bufet işçilərinin, o cümlədən xadimələrin xüsusi rolu var.**
**Biz tələbələrin rahatlıqları üçün gün ərzində xeyli yorulurlar.**

Fikirli halda geniş və işıqlı zalda gəzirəm. Bu, mənim bufetdəki son günlərimdir. İllər çox tez keçdi. Əgər bir azca şansım varsa universitetimin bufetində nə vaxtsa müəllim kimi oturmaq da mənə qismət olar.

***Kənan Novruzov,***
*Jurnalistika fakültəsinin*
*IV kurs tələbəsi*

# Tələbəmiz dünya çempionu oldu



*Şərqşünaslıq fakültəsinin I kurs tələbəsi Səmədulla Məmmədzadə Ukraynanın Xarkov şəhərində keçirilən döyüş növləri üzrə dünya çempionatında iştirak edib.* Qaydasız döyüş üzrə yarışda 70 kq çəkidə döyüşən S.Məmmədzadə yarışın üçüncüsü olub. Qeyd edək ki, dünya çempionatında 15 ölkədən 1200 idmançı çıxış edib. Ölkəmizi bu yarışda 50 idmançı təmsil edib. Milli komandamız medal sayına görə yarışda ikinci pillədə qərarlaşıb.

# Psixoloji yardım sektoru tələbələrə dəstək olacaq

Bakı Dövlət Universiteti Elmi Şurasının 8 iyul 2019-cu il tarixli iclasının qərarı ilə Universitetdə təhsil alanların və əməkdaşların psixoloji problemlərinin həllinə, onlarda yarana biləcək emosional və psixi böhranların qarşısının alınmasına, stress vəziyyətlərin nəticələrinin aradan qaldırılmasına, şəxsiyyətlərarası münasibətlərin və psixi sağlamlığın yaxşılaşdırılmasına yardım etmək və təlim fəaliyyəti üçün əlverişli sosial-psixoloji və sosial-pedaqoji şərait yaratmaq məqsədilə Psixoloji yardım sektoru yaradılıb və artıq fəaliyyətə başlayıb.



# Mənəvi dəyərlərimiz

***Kökü çoxəsrlik tarixə gedib çıxan xalqımızın milli və mənəvi dəyərləri bu gün də bizi digər xalqlardan üstün keyfiyyətlərlə müsbət mənada fərqləndirir. Əcdadlarımızdan qalan bu xüsusiyyətlər bizim üçün gündəlik istifadə edəcəyimiz yaşayış qaydalarına çevirilməlidir.*** Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan "Əxlaqi-Nasiri" kitabında dünya şöhrətli Nəsirəddin Tusinin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsvirləri, etik-fəlsəfi fikirləri yer alıb.

Dərinə varsaq, həqiqətən də milli dəyərlərimizin necə də incəliklə düşünülmüş olduğunu, insan mədəniyyətinin etalonu olduğunu görə bilərik. Əlbəttə, bu cür yüksək mental keyfiyyətlərə sahib olmağımız heç də hamının xoşuna gəlmir. Bir çox halda xalqımızın sahib olduğu zəngin, qədim mənəvi irsin dayaqlarını bu və ya digər çirkin yollarla "müasirləşmək" adı altında laxlatmağa çalışırlar. Təbii ki, yeni dövrün tələbləri ilə ayaqlaşmaq, ya da başqa dillə desək, dırnaqsız müasirləşmək bizim üçün çox vacibdir. İstər elm, təhsil, səhiyyə, istərsə də gündəlik yaşam tərzimizə aid olan keyfiyyətlərin modern səviyyəyə çatması bir çox müsbət nəticələrə gətirib çıxardır.

Tarixə nəzər salsaq görərik ki, Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri Əli bəy Hüseynzadənin dövlətçilik düsturu hesab olunan "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyasını ifadə etmək üçün istifadə etdiyi sözlərdən biri də elə müasirləşmək sözüdür.

***Həqiqətən də milli dəyərlərimizin necə də incəliklə düşünülmüş olduğunu, insan mədəniyyətinin etalonu olduğunu görə bilərik***

Nədənsə müasirləşmək deyəndə yuxarıda sadalanan mühüm məfhumları görmədən, digər lazımsız xüsusiyyətləri həyatımıza daxil etməyə can atırıq. Əfsuslar olsun ki, qloballaşan internet əsrində bu sahəni kiçik araşdıran şəxs belə başa düşür ki, yersiz, məntiqsiz, insanları uçuruma aparan "yenilik"lər müxtəlif şər qüvvələrinin yürütdüyü siyasi mexanizmdir.

***Elə aparılan iyrənc siyasətin nəticəsidir ki, hazırkı zamanda gənclər mövzusu mental xüsusiyyətlərin dəyərləndirilməsinə, qorunub saxlanmasına və müasir dövrdə tətbiq olunmasına aid olan müxtəlif məkanlarda keçirilən danışıq klublarında fikir fərqliliyinə görə iki qrupa bölünüb:*** gənclərin bir qismi ənənələrimizin qorunub saxlanmasının, digər, özləri də bilmədən çirkli siyasətin "oyuncaqlarına" çevrilmiş, fikir və düşüncələrinin deqrodasiyaya uğradığı qismi isə sözügedən adətlərin müasir dünyaya ayaqlaşmadığını, ümumiyyətlə, sağlam insan məntiqinə sığmadığını düşünür. Bizlərlə birgə yaşayan, lakin potensial terrorçuya çevirilmiş gəncliyin həqiqətən də maariflənməyə ciddi ehtiyacı var.

Axı narazı təbəqəni bu qədər radikal və sərt olmağa vadar edən, onların dili ilə desək, "köhnəlmiş adətlər" hansılardır ki, bizi müasirlikdən geri salır? Bəlkə elə həqiqətən də biz köhnə düşüncəli, üstündən naftalin iyi gələn təbəqəyik?

Elə başlayaq ən xırdasından tutmuş, ən böyüyünə qədər sadalamağa. Metroda, avtobusda, tramvayda yaşlı nəsilə, hamilə qadına bir gənc oğlanın hörmət əlaməti olaraq digər bir xanıma yer verməsinin mədəni etiket qaydasından başqa pis, mənfi hansı yozumu ola bilər ki? Gender diskriminasiyası... Bəli, müasir, "beyni yuyulmuş" gənclər hesab edir ki, bu, gender diskriminasiyasıdır, yəni bir cinsin digər cinsdən üstün tutulması. Əsas da xanımların fəal çağırışlar etdiyi dönəmdə belə başa düşmək olar ki, bu cinsi ayrıseçkilikdən əziyyət çəkən yalnız xanımlardır.

***Əhalinin çox faizinin müsəlman olduğu cəmiyyətdə həqiqətənmi qadın faktoru incə, zərif yox, zəif cins kimi hesab edilir?*** Gülüncdür, elə deyilmi?.. İslam dinində qadın hər zaman hörmət edilməli olan, "cənnəti öz ayaqları altında" saxlayan varlıqdır axı. Həqiqətən ortaya arqument çıxaranda həmin gənc təbəqə dini araşdırır ya?.. Əlbəttə, xeyr! Çünki elə olan halda bu cür tragikomik vəziyyətlə qarşılaşmış olmazdıq.

Elə söhbət dindən düşmüşkən onu da mütləq qeyd etmək lazımdır ki, müqəddəs Kitabda mənəvi davranış qaydaları izah edilir, insanın mənəvi keyfiyyətləri ön plana çəkilir. Burada yalnız qadın hüquqları deyil, bütün insani keyfiyyətlərin necə olması izah edilir, düzgün yolları göstərilir.

Bəs, iki gəncin bir-birini bəyənməsindən sonra ailələrin tanış olub, bu işə öz xeyir-dualarını verməsində pis nə ola bilər ki? Azadlığın məhdudlaşdırılması, onlar elə deyir. Valideyn min bir əziyyətlə neçə il övladının tam yüksək şərtlərlə böyüməsini gözləyir, onun gələcəyi üçün ən saf, xoş xəyallar qurur və bağını həssaslıqla "bəsləyən" bağban kimi övladının "bar verməsini" diləyir. Valideynin yuxarıda sadalanan, etmiş olduğu hərəkətlərin hansı övladı üçün zərərlidir ki? Təbii ki, heç biri... Sadəcə "toxumu xarab" övlad onun sağlaması, bərpası üçün tətbiq edilən "gübrə"ni belə zəhərli, zərərli görür. Həmin valideyn idi axı səni müstəqil yaşa çatdıqdan sonra belə göz bəbəyi kimi qoruyan, özündən çox istəyən.

Həmin Avropadır ki, həddi - buluğa çatan gənci sərbəst həyata atırlar: min bir əziyyətlə qarşılaşan yeniyetmə yaşayışı üçün ən optimal şərtləri axtarır. Bir çox halda təkbaşına "vəhşi təbiətə" atılmış gənci "çaqqalar" da özlərinə ov edir, pis yollara çəkir. Ən yaxşı halda ya hər şeyini qumarda uduzmuş evsiz - eşiksiz yoxsula, ya da ki, dispanserdə ölümdən canını qurtarmağa çalışan narkotik aludəçisinə çevrilir. Amma bu, həmişə belə olmur, çünki hamının şansı üzünə gülmür.

Təbii ki, sözügedən yeni, müasirlik adıyla bəlli "məqsədlər"lə yürüdülən "adət"lərin milli və mənəvi dəyərlərimizin siyahısına daxil olmasına yol verməməliyik. Çünki beyni yuyulmuş potensial zərərvericilər bildikləri bütün yollarla zaman - zaman sağlam düşüncəli təbəqənin də sıradan çıxması üçün çalışmağa başlayacaq və sayı bizim məsuliyyətsiz yanaşmağımız səbəbindən artmış robotabənzər məxluqların qarşısında dayanmaq çətin olacaq. Ona görə də necə deyərlər, dəmiri isti-isti döyərlər...

***Nicat Dilqəmli,***
*Jurnalistika fakültəsinin*
*III kurs tələbəsi*

**Buraxılışa məsul redaktor:** Afaq Sadıqova

**Redaksiya heyəti** Əliş Ağamirzəyev, Vüqar Ziferoğlu, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Nəsir Əhmədli

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

**Çapa imzalandı:** 28.01.2020

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır